Azərbaycan Respublikası
Təhsil Nazirinin 13.08.2009-cu il
tarixli 1002 №-li əmri ilə təsdiq
edilib

# İlk peşə təhsili müəssisəsinə şagird qəbulu
# q a y d a l a r ı

1. Azərbaycan Respublikasının ilk peşə təhsili müəssisəsinə 15 yaşdan başlayaraq müxtəlif təhsil səviyyəli şəxslər qəbul olunurlar.
2. İlk peşə təhsili müəssisəsində tədris qrupları komplektləşdirilərkən qəbul olmaq istəyənlərin yaş və təhsil səviyyələrindəki fərq nəzərə alınır.
3. İlk peşə təhsili müəssisələrinə bir qayda olaraq əsas və orta təhsil sənədi olan şəxslər təhsil müddəti 1-4 il olan və qısamüddətli kurslara qəbul edilirlər.
4. Müxtəlif istehsal və xidmət sahələrində işləyən, peşə hazırlığını təkmilləşdirmək, peşəsini dəyişmək arzusunda olan digər yaş və təhsil səviyyəli şəxslər üçün ayrı və ya qarışıq qruplar təşkil olunur. Həmin şəxslər təhsil müddəti 1-2 il olan və yaxud qısamüddətli kurslarda peşə təhsili ala bilərlər.
5. İlk peşə təhsili müəssisəsinə qəbul olmaq istəyənlər aşağıdakı sənədləri təqdim edirlər:

- seçilən peşənin adı göstərilməklə direktorun adına ərizə;
- təhsil haqqında sənədin əsli;
- İlk peşə təhsili müəssisəsinə qəbul olmaq üçün seçilmiş ixtisasa uyğun sağlamlıq və fiziki inkişafı özündə əks etdirən müvafiq formalı tibbi arayış təqdim olunur;
- şəxsiyyət vəsiqəsi və ya doğum haqqında şəhadətnamə,
  yaşayış yerindən arayış;
- 3 x 4 sm. ölçüdə dörd ədəd foto şəkil;

Şəxsiyyət vəsiqəsi (doğum haqqında şəhadətnamə), hərbi mükəlləfiyyət barədə sənəd şəxsən təqdim olunur. Bu sənədlər əsasasında müvafiq qeydlər aparıldıqdan sonra onlar sahibinə qaytarılır.

6. İlk peşə təhsili müəssisələrinə şagird qəbulu aşağıdakı formalarda həyata keçirilə bilər:

- seçilən peşə üzrə müsahibə yolu ilə ilkin biliklərin müəyyən edilməsi;
- ana dili və riyaziyyat fənləri üzrə biliklərin yazılı şəkildə yoxlanılması;
- seçilən ixtisasa uyğun olan ümumtəhsil fənlərindən zəruri minimum bilik və bacarıqların müsahibə yolu ilə yoxlanılması.

7. İlk peşə təhsili müəsisəsinə sənəd qəbulu sentyabr ayının 1-nə kimi davam edir.
8. Şagird qəbulunun təşkili və aparılması məqsədi ilə ilk peşə təhsili müəssisəsində qəbul komissiyası yaradılır. Qəbul komissiyasının tərkibinə direktor, direktor müavinləri, həmkarlar ittifaqının sədri, işəgötürənlərin nümayəndələri daxil edilir. Komissiya üzvlərindən biri sədr seçilir, sonra yeni tərkibə pedaqoji şurada baxılır

və direktor tərəfindən təsdiq olunur. Üzvlərdən biri komissiyanın katibi təyin edilir.

9. Qəbul komissiyasının vəzifələri:

9.1. Peşəyönümü işini təşkil edir və ilk peşə-ixtisas təhsili müəssisəsinə sənəd qəbulunun qurtarmasına ən azı bir qy qalmış kütləvi informasiya vasitələrində şagird qəbulu barədə elan verir, qəbul olmaq istəyənlərlə peşənin seçilməsi, istehsalatda işləmək və təhsil şərtləri haqqında söhbət aparır;

9.2. Sənəd qəbulunu həyata keçirir və sənədlərin qəbul olması barədə vahid formada arayış verir;

9.3. Bu qaydaların 6-cı bəndinə uyğun şagird qəbulunun keçirilmə formasını müəyyən edir;

9.4. sentyabr ayının 1-dən 10-a qədər şagird qəbulu prosesini həyata keçirir, qəbulun nəticələrini protokollaşdırır və müvafiq əmr verilməsi üçün təhsil müəssisəsinin rəhbərinə təqdim edir.

10. Qəbul zamanı eyni nəticə göstərənlərə aşağıdakı ardıcıllıqla üstünlük verilir:

- təhsil sənədində (şəhadətnamə və attestat) göstərilən qiymətlərin orta balına əsasən;
- işəgötürənlər tərəfindən göndərişlə gələnlərə;
- ixtisası üzrə iş stajı olanlara.

11. Qısa müddətli kurslara qəbul tədris ili ərzində ilk peşə təhsili müəssisəsi tərəfindən elan edilir və aparılır.

12. Azərbaycan Respublikasında yaşayan xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər ilk peşə təhsili müəssisəsinə bu qaydalara uyğun olaraq ödənişli əsaslarla qəbul olunurlar;

13. Şagird qəbulu barədə əmr sentyabr ayının 14-dən gec olmayaraq verilir;

14. İlk peşə təhsili müəssisəsinə qəbul olunanlar 10 gün müddətində dərsə gəlmədikdə (üzürsüz səbəbdən) təhsil müəssisəsindən xaric olunurlar;

15. İlk peşə təhsili müəssisəsinə qəbul olmayan şəxslərin sənədləri 5 gün müddətində geri qaytarılır;

16.İlk peşə təhsili müəssisələrinə şagird qəbulu ilə əlaqədar şikayətlərə təhsil müəssisəsində yaradılan apellyasiya komisiyasında baxılır.

17.İlk peşə təhsili müəssisəsində yaradılan apellyasiya komissiyasının qərarı ilə razı razılaşmayan şikayətçilər senttabr ayının 30-dək Təhsil Nazirliyinə müraciət edə bilərlər.